31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

12 (1267) 30 mart - 5 aprel 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “BİZ LAÇINI HƏM DÖYÜŞ MEYDANINDA, HƏM SİYASİ YOLLARLA QAYTARDIQ”



“İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik”.

Bu barədə Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

“Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır”, - deyə dövlətimizin başçısı vurğulayıb.

## “HEÇ KİM BİZİMLƏ ULTİMATUM DİLİ İLƏ DANIŞA BİLMƏZ”

“Müharibədən ötən iki il yarım müddət ərzində bütün dünya, eyni zamanda, anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü”.

Bu barədə Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib. *“Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik”*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## “BİZ LAÇIN VƏ KƏLBƏCƏRİN SU EHTİYATLARI HESABINA BÖYÜK ENERJİ MƏNBƏYİ YARADACAĞIQ”

“Biz Laçın və Kəlbəcər rayonlarının su ehtiyatlarından istifadə edərək böyük bir enerji mənbəyi yaradacağıq”.

Bu fikri Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən söyləyib.

“İndi Laçın, Kəlbəcər, Zəngilan və bir neçə digər rayonda Su Elektrik stansiyalarının tikintisi sürətlə gedir, biz 50 meqavatdan çox enerji alırıq. Bütövlükdə isə qarşıya məqsəd qoyulmuşdur ki, azad edilmiş ərazilərdə bu ilin sonuna qədər su elektrik stansiyalarının gücü 200 meqavat olsun, gələcəkdə isə 500 meqavata çatmalıdır. Laçın və Kəlbəcər rayonlarında böyük külək enerji potensialı var”, - deyə dövlətimizin başçısı əlavə edib.

## PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Şarl Mişel Avropa İttifaqının regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini deyib. Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycanın Laçın-Xankəndi yolu ətrafındakı məsələlərə toxunub və son günlərdə Ermənistanla Azərbaycanın dövlət sərhədində baş vermiş insidentlərlə əlaqədar narahatlığını ifadə edib.

Prezident İlham Əliyev Azərbaycanın Brüssel prosesini dəstəklədiyini bir daha vurğulayıb. Laçın-Xankəndi yolu ətrafındakı vəziyyətə toxunan Azərbaycan Prezidenti qeyd edib ki, bu yolun guya bağlı olması ilə əlaqədar Ermənistanın irəli sürdüyü iddialar tamamilə yalandır. Belə ki, 2022-ci il dekabrın 12-dən bu günədək Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus 5 minə yaxın nəqliyyat vasitəsi, tibbi yardıma ehtiyacı olan şəxs və onları müşayiət edənlər bu yoldan keçiblər.

Dövlətimizin başçısı qeyd edib ki, 2023-cü il martın 20-də Avropa İttifaqı missiyasının yerləşdiyi Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətində Ermənistanın növbəti təxribatı zamanı Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb və martın 5-də Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni erməni hərbi birləşmələrinin törətdikləri təxribat zamanı 2 hərbi qulluqçumuz şəhid olub. Azərbaycan Prezidenti vurğulayıb ki, bütün bunlar Ermənistanın apardığı təhlükəli siyasətin nəticəsidir.

## “LAÇININ İŞĞALI AXC-MÜSAVAT XƏYANƏTKAR CÜTLÜYÜNÜN NÖVBƏTİ ÇİRKİN XƏYANƏTİ İDİ”

“Şuşanın işğalından bir neçə gün sonra Laçın rayonu da işğal edildi. Bu, ölkəmiz üçün, laçınlılar üçün böyük faciə idi və bu, AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti idi”.

Bu fikirləri Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən söyləyib.

Dövlətimizin başçısı deyib: *“AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər - hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu. Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb oldu. Bu imkandan, fürsətdən istifadə edərək AXC-Müsavat xəyanətkar cütlüyü Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etdi və bu, daha böyük faciələrə yol açdı”.*

Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin səbəblərini izah edən dövlətimizin başçısı deyib:

*“Ondan (Laçının işğalından-red.) bir il keçməmiş - 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, ovaxtkı - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə Ermənistan ərazisi arasında coğrafi bağlantı yaradılmışdır və əlbəttə ki, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin əsas şərti olmuşdur”.*

## “FRANSANIN AZƏRBAYCANA QARŞI ƏDALƏTSİZ VƏ MƏNFİ MÜNASİBƏTİ TƏSADÜFİ DEYİL”

“İndi hər şey aydın oldu - Fransanın Azərbaycana bu ədalətsiz və mənfi münasibəti təsadüfi deyil”.

Bu fikri Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən söyləyib.

İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Azərbaycana qarşı irəli sürülən əsassız ittihamlardan danışan dövlətimizin başçısı deyib: “Yəni, bütün bunlar göz qabağındadır, o cümlədən Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi bir sıra qətnamə yenə də ermənipərəst, rüşvətxor və anti-Azərbaycan qruplaşmanın məhsuludur və burada aparıcı rolu Fransa deputatları oynayır”.

## “BİZ ARTIQ BU DOĞMA DİYARIMIZDA ƏBƏDİ YAŞAYACAĞIQ”

“İkinci Qarabağ müharibəsi başa çatanda rayon bizim nəzarətimizə keçsə də, Laçın şəhəri nəzarətimizdən kənarda idi. Çünki Ermənistandan Qarabağa gedən yol Laçın şəhərinin ortasından keçirdi”. Bu barədə Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib.

Məsələnin həlli üçün göstərdiyi səylərdən danışan dövlətimizin başçısı deyib: *“Avqustun 26-da biz Zabux, Sus kəndlərinə və Laçın şəhərinə qayıtmışıq. Ondan sonra mən Laçın şəhərinə səfər etdim, Azərbaycan Bayrağını şəhərin mərkəzində qaldırdım və bəyan etdim ki, biz artıq bu doğma diyarımızda əbədi yaşayacağıq”.*

“Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start vermişik. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək”, - deyən dövlətimizin başçısı bildirib ki, Zabux kəndinin sakinləri üçün tamamilə yeni kənd salınır.

Artıq iki ildən çoxdur ki, Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Bildiyiniz kimi, Laçın rayonunda beynəlxalq hava limanı inşa edilir.

Hava limanının yerini müəyyən edərkən qarşıya çıxan çətinliklərdən danışan dövlətimizin başçısı deyib: *“Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək”.*

## “QARABAĞ” VƏ “QALATASARAY” ARASINDA XEYRİYYƏ OYUNU SARSILMAZ HƏMRƏYLİYİN ƏYANİ TƏSDİQİDİR



Martın 26-da Bakı Olimpiya Stadionunda Ağdamın “Qarabağ” və İstanbulun “Qalatasaray” komandaları arasında xeyriyyə oyunu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva stadionda oyuna baxıblar.

“Qalatasaray” futbol klubunun prezidenti Dursun Özbək Prezident İlham Əliyevə üzərində komandanın oyunçularının imzası olan forma-nı və digər xatirə hədiyyələrini təqdim edib.

Bu oyun qardaş Türkiyədə baş vermiş “Əsrin fəlakəti”nin - güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına yardım məqsədilə təşkil olunub. Görüşdən əldə olunacaq bütün gəlirlər zəlzələdən əziyyət çəkənlərə yardım üçün Türkiyəyə göndəriləcək.

Oyun üçün satışa çıxarılmış 62 mindən çox biletin hamısının qısa müddətdə satılması bu qarşılaşmaya göstərilən böyük maraqla yanaşı, Azərbaycan xalqının çətin gündə qardaş Türkiyə ilə sarsılmaz həmrəylik nümayiş etdirməsinin də əyani təsdiqidir.

## PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI





Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinken martın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Dövlətimizin başçısı qeyd edib ki, ötən il dekabrın 12-dən bu günədək Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə buradan 4700-dən artıq nəqliyyat vasitəsinin, tibbi yardıma ehtiyacı olan şəxslərin və onları müşayiət edənlərin keçidi təmin olunub. Buna görə də bu yolun guya blokadada olması barədə məlumat Ermənistanın yalançı təbliğatıdır.

Azərbaycan Prezidenti vurğulayıb ki, Ermənistanın Laçın yoluna köməkçi yoldan istifadə edərək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərimizdə qanunsuz hərbi daşımalar, şəxsi heyətin rotasiyasını həyata keçirməsi, habelə Ermənistan silahlı qüvvələrinin 10 minə yaxın hərbçisinin hələ də Azərbaycan ərazisində olması ciddi narahatlıq doğurur. Bu xüsusda dövlətimizin başçısı Azərbaycanın Laçın yolunun Ermənistanla sərhədinin son nöqtəsində sərhəd-keçid məntəqəsinin yaradılmasının labüdlüyünü xüsusilə vurğulayıb. Dövlət katibi Antoni Blinken bir daha vurğulayıb ki, ABŞ Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün səylərini bundan sonra da davam etdirəcək.

## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



***1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlıları kütləvi şəkildə vəhşicəsinə qətlə yetirmişlər. Rəsmi mənbələrə əsasən, bu soyqırımının nəticəsində 12 minə yaxın azərbaycanlı amansızcasına öldürülmüş, on minlərlə insan itkin düşmüşdür.***

Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman 1925-ci ildə Bakı hadisələri barədə bunları yazırdı: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər." Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazmışdır. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin, ingilislərin və rusların yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək, təkcə Bakıda Mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirmişdir.

Bu hadisələrin dəhşətini göz önünüzə gətirməyiniz üçün 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikası hökumətinin, Fövqəladə İstintaq Komissiyasının materiallarında göstərilir ki:

- ***1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilimişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur.***
- ***Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir.***
- ***1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilmişdir.***
- ***Erməni silahlı dəstələri Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 3257 kişi, 2276 qadın və 2196 uşağı öldürmüşdülər. Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür.***
- ***İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə-yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir.***

Artıq bütün şəhidlərimizin ruhu şaddır. Çünki onların uğrunda canlarından keçdiyi Azərbaycan 44 günlük Vətən müharibəsindən qalib çıxaraq, öz ərazi bütövlüyünü bərpa etdi.

Ümummilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanından sonra hər il 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd edilir.

Azərbaycanlıların Soyqırımı Gününün yad edilməsi keçmişdə və hazırda azərbaycanlıların qırğın və etnik təmizləmələrə məruz qalması barədə dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayır.

Soyqırım qurbanlarının xatirəsini ehtiramla yad edir, onlara Allahdan rəhmət diləyirik.

**(daha ətraflı gələn sayımızda)**

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA RAMAZAN AYI MÜNASİBƏTİLƏ PAYLAŞIM EDİB

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Ramazan ayı ilə bağlı paylaşım edib.

Paylaşımda deyilir: *"Müqəddəs Ramazan ayının başlanması münasibətilə bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını səmimi-qəlbdən təbrik edirəm! Qoy mübarək Ramazan ayı ürəklərdə saf duyğular və xoş niyyətlər oyatsın, hər bir ocağa ruzi-bərəkət, hər kəsin ailəsinə sağlıq, sevinc, səadət və əmin-amanlıq gətirsin! Uca Allah etdiyiniz duaları, tutduğunuz orucu qəbul etsin!"*




## Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolunun açılışı olub



Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tərtər rayonuna səfəri çərçivəsində Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə məlumat verib.

Prezident İlham Əliyev tərəfindən 2021-ci il oktyabrın 3-də Tərtər rayonunda təməli qoyulan və 4 yaşayış məntəqəsini birləşdirən yeni avtomobil yolunun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişi ilə bərabər, bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək.

## Azərbaycan Xəzərin yaşıl enerji potensialını Avropaya tədarük etmək niyyətindədir




Energetika naziri Pərviz Şahbazov 9-cu "Berlin Enerji Keçidi Dialoqu" konfransında çıxış edib.

Nazirlikdən bildirilib ki, çıxışda Azərbaycan prezidenti tərəfindən ölkənin sosial-iqtisadi inkişaf strategiyasının prioritetlərindən biri kimi müəyyənləşdirilən bərpa olunan enerjinin inkişafı daha çox tərəfdaş ölkələrin enerji təhlükəsizliyinə töhfə vermək aspektində diqqətə çatdırılıb. Ötən il Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sektorunda strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasını xatırladan energetika naziri deyib ki, Azərbaycan uzun illərdir dünya neft bazarını xam neft və neft məhsulları ilə təmin edir.

Energetika naziri bildirib ki, Azərbaycanın "yaşıl enerji" ilə bağlı siyasəti bu sahənin inkişafına dövlətin maliyyə vəsaitlərini deyil, xarici şirkətləri cəlb etməyə yönəlib. Xarici investorlarla artıq 710 MVt gücündə külək və günəş enerji layihələrinin icra edildiyi, 25 QVt-a yaxın istehsal gücləri üzrə əməkdaşlıq sənədlərinin imzalandığı qeyd edilib. Bu potensial və ötən ilin dekabrında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsinə dair imzalanmış Saziş əsasında ölkəmizin Avropaya "yaşıl enerji"ni tədarük etmək niyyəti ifadə edilib: ***"Xəzər dənizində 157 QVt-lıq külək potensialımız var. Biz onu Avropa İttifaqına yüksəkgərginlikli xətlər vasitəsilə elektrik enerjisi, "yaşıl hidrogen", ammonyak şəklində verə bilərik. Dörd ölkə Avropa Komissiyası və özəl şirkətlərlə birlikdə bunun üzərində işləyir".***

# Tariximizdə yaşayacaq aksiyanın 100 günü

*2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə keçirilmiş müzakirələrin nəticəsi olaraq, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı ilkin monitorinqə başlamaq üçün Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərinə yola düşüb. Lakin Rusiya sülhməramlılarının müşayiəti ilə sözügedən yataqların yerləşdiyi ərazilərə gəlsələr də, hər iki istiqamətdə təxribatla üzləşiblər. Beləliklə, Rusiya sülhməramlıların nəinki lazımi şərait yaratmaması, əksinə, bu prosesin qəsdən pozulması ssenarisində iştirakına görə nəzərdə tutulan ilkin baxış və monitorinq baş tutmayıb. Bununla da 12 dekabr tarixindən Laçın-Xankəndi yolunda azərbaycanlı ekofəalların etiraz aksiyası start verdi...*

**13 DEKABR 2022-ci il** tarixində Xarici İşlər Nazirliyində Azərbaycanda akkreditə olmuş diplomatik korpusun nümayəndələri və hərbi attaşelər üçün keçirilən brifinqdə ***Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib:*** *"Vardanyanın Azərbaycanın təbii sərvətlərini talan etməsinə və ətraf mühitə ciddi ziyan vurmasına imkan verilməyəcək. Laçın dəhlizi azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb. Azərbaycan XİN rəsmi açıqlama yayıb ki, Azərbaycan ərazilərimizdə yaşayan erməni sakinlərin humanitar ehtiyaclarını qarşılamağa hazırdır. Qarabağda yaşayan erməni sakinlərinin hüquq və təhlükəsizliyi məsələsi Azərbaycanın daxili işidir."*

**14 DEKABR 2022** - Aksiyada "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ən böyük əsgər - bizim əsgər!", "Qarabağ Azərbaycandır!", "Azərbaycan oyaqdır, sərvətinə sahibdir!" şüarları səsləndirilib. Aksiya iştirakçıları tərəfindən havaya 44 ədəd göyərçin uçurulub.

**19 DEKABR 2022** - Trend İnformasiya Agentliyinin Fransada təsis etdiyi *"Lagazetteaz.fr" qəzetinin baş icraçı direktoru Jan-Mişel Brün* qəzetdə Fransanın ermənilərі dəstəklədiyi təqdirdə, müstəqillik üçün nümayişlər edən korsikalıları həbsə atdığı barədə məqalə dərc edib. ***Jan-Mişel Brün qeyd edir ki, əgər 20 000-ə yaxın Qarabağ ermənisi bütün diqqətin obyekti olursa, 400 000 korsikalının Parisdən azadlıq istəyinə necə mane olmaq olar?*** Həmin gün ***Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) 1 nəfər xəstənin həkim və tibb bacısının müşayiəti ilə Xankəndidən Ermənistana aparılması üçün Azərbaycan tərəfinə müraciət edib, müraciətə dərhal cavab verilib və keçid uğurla təşkil olunub.*** Aksiya iştirakçıları Laçın-Xankəndi yolundan BQXK məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçməsinə şərait yaradıblar. 19 dekabr Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus humanitar avtomobil və təcili yardım maşını, rus sülhməramlılarından birinin ailə üzvlərinin olduğu avtomobil, eləcə də Rusiya sülhməramlılarına məxsus 10-dan artıq təminat avtomobili də aksiya keçirilən ərazidən maneəsiz keçiblər.

**20 DEKABR 2022** - Dini konfessiya rəhbərləri Şuşa-Laçın yolundakı aksiya ilə bağlı birgə bəyanat yayıb: ***"Ermənistanın qeyri-konstruktiv mövqeyi bölgəmizin əmin-amanlığı və iqtisadi rifahı yönündə perspektivləri əngəlləyir. Dövlətimiz ərazilərində yaşayan bütün etnik və din mənsublarına, o cümlədən Qarabağda yaşayan dinc erməni əsilli Azərbaycan vətəndaşlarına ehtiramla yanaşır, onların hüquqlarını və dəyərlərini qoruyur. Uca Allahın neməti olan torpaq, onun üstündə və təkində olan bütün sərvətlərə ehtiram və qayğı ilə yanaşmaq Azərbaycan torpaqlarında yaşayan həm azərbaycanlıların, həm də ermənilərin vətəndaşlıq borcudur."***

**21 DEKABR 2022** - Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyasının iştirakçıları bəyanat yayıb: ***"Biz aksiya iştirakçıları olaraq Laçın yolunun hərbi məqsədlər üçün istifadə olunmasına, təbii sərvətlərimizin talan edilərək, ölkədən çıxarılmasına son qoyulmasını tələb edirik. Laçın-Şuşa-Xankəndi yolu Azərbaycan Respublikasının suveren ərazisidir. Biz həmçinin Ermənistan hakimiyyətinin, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qanunsuz erməni silahlı dəstələrinin erməni əsilli sakinləri təhdid etməsinə, onların Azərbaycana reinteqrasiyasına bütün vasitələrlə maneə olmasına qəti etiraz edirik. Biz erməni əsilli sakinlərlə birgə yaşayışa dəvət edirik. Vətəndaş cəmiyyəti təmsilçiləri olaraq Qarabağda yaşayan erməni əsilli vətəndaşlarımızın humanitar problemləri olduğu halda, onların aradan qaldırılması üçün bütün resurslarımızı səfərbər etməyə hazır olduğumuzu bir daha bəyan edirik".***

**22 DEKABR 2022** - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan arasında telefon danışığı olub. H.Hacıyev özünün "Twitter" səhifəsində yazıb: ***"Biz ikitərəfli münasibətləri, regional təhlükəsizlik məsələlərini, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh sazişi üzrə danışıqları nəzərdən keçirdik. Azərbaycanın regional sülh gündəmini irəli aparmaq əzmində olduğunu bildirdim. Faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarı və bunun nəticəsində ətraf mühitə dəyən ziyanla bağlı Laçın-Xankəndi yolunda dinc etiraz aksiyası keçirən Azərbaycan vətəndaş cəmiyyətinin haqlı narahatlığını ifadə etdim. Ermənistanın "blokada" ilə iddiaları əsassız qara təbliğat cəhdləridir."***

**24 DEKABR 2022** - Almaniyanın Köln şəhərində Ermənistanın ekoloji terroruna etiraz və ətraf mühitin qorunması tələbləri ilə Şuşa-Xankəndi yolunda aksiya keçirən ekoloji fəallara dəstək məqsədilə piket keçirilib. Aksiya Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə Köln Kafedralının qarşısında baş tutub.

**26 DEKABR 2022** - Nyu-Yorkdakı soydaşlarımız BMT önündə etiraz aksiyası keçiriblər.

**27 DEKABR 2022** - Tbilisidə BMT-nın ofisi qarşısında Qarabağda törədilən ekoloji terrora diqqət çəkmək məqsədilə dinc aksiya keçirilib.

**9 YANVAR 2023** - Ekokönüllülərin aksiya keçirdiyi ərazidə fotosərgi təşkil olunub.

10 yanvar 2023-cü il Prezident İlham Əliyev: ***"Laçın-Xankəndi yolunda etiraz aksiyası keçirən gənclər bizim fəxrimizdir. Gecə-gündüz şaxtalı-qarlı havada oradadırlar, öz haqlarını tələb edirlər və bir daha Azərbaycan gəncinin nə qədər yüksək keyfiyyətlərə malik olmasını bütün dünyaya göstərirlər. Bunun, necə deyərlər, bir addımlığında separatçılar dünyaya tamamilə yalan informasiya ötürməklə məşğuldurlar. Orada blokadadan söhbət gedə bilməz. Sülhməramlıların dörd yüzə yaxın yük avtomobili oradan keçib. Əlbəttə ki, oradan keçən, hətta bu aksiyaya qədər keçən bütün nəqliyyat vasitələri nəzarət altında idi. Biz haradan öyrəndik ki, İran maşınları oraya yanacaq aparır? Biz orada gördük. Halbuki, İran tərəfi bunu əvvəllər inkar etməyə çalışırdı. Hətta İran maşınları üzərinə saxta erməni nömrələrini yapışdırmaqla bizi belə primitiv səviyyədə aldatmaq istəyirdilər. Monitorinq, təftiş, qanunsuz istismarın dayandırılması tələb edilir və biz buna nail olacağıq. Ona görə Laçın-Xankəndi yolunda baş verən hadisələrə blokada demək, sadəcə olaraq, insafsızlıqdır."***

**18 YANVAR 2023** - Kanadalı jurnalist Deyv Qordon və gürcüstanlı bloger Tamuna Mumladze (Tako) Xankəndi-Laçın yolundakı aksiyanı müşahidə edirlər, aksiyanın keçirilmə səbəbləri barədə məlumat əldə edir, çəklişlər aparırlar.

**19 YANVAR 2023-cü il** - Milli Məclis Avropa Parlamentinin qətnaməsi ilə əlaqədar bəyanat yayıb: ***"Biz Avropa Parlamentinin 2023-cü il yanvarın 19-da xüsusi prosedur qaydasında qəbul etdiyi qeyri-obyektiv və ədalətsiz qətnaməyə etirazımızı bildirir, yalan və saxta məlumatlar üzərində qurulmuş əsassız ittihamları qətiyyətlə rədd edirik. Fransalı nümayəndələr başda olmaqla Azərbaycana qarşı qərəzli mövqe tutan deputatların təşəbbüsü ilə müzakirəyə çıxarılmış, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağın dağlıq hissəsinin guya blokadaya alınmasının humanitar nəticələrindən bəhs edən birgə qətnamə həmin sənədin müəlliflərinin ikili standartlardan yenə də əl çəkə bilmədiklərini göstərir. Laçın-Xankəndi yolunda dinc etiraz aksiyası 1 aydan artıqdır davam edir. Bununla əlaqədar qeyd edilməlidir ki, Avropa Parlamentinin qətnaməsində iddia edilənlərin əksinə olaraq, Qarabağ ərazisində yaşayan 20 mindən bir qədər artıq erməni milliyyətli vətəndaşın blokadaya alınmasından söhbət gedə bilməz. Laçın dəhlizi Rusiya sülhməramlılarının daşıdığı humanitar yüklər, "Qırmızı xaç" komitəsi nümayəndələrinin, eləcə də Qarabağda yaşayan ermənilərin, o cümlədən uşaqların və xəstələrin gediş-gəlişi üçün açıqdır. Qətnamədə guya Azərbaycanın Qarabağ ərazisinə təbii qaz tədarükünü pozması barədə irəli sürülən iddialara gəlincə, bunlar əsassız olduğu qədər də gülüncdür. Xatırlatmaq yerinə düşər ki, vaxtı ilə Avropa Parlamenti Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən, bu gün Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi" layihəsinin də əleyhinə çıxırdı".***

**20 YANVAR 2023** - Azərbaycan XİN Avropa Şurası sədrinin ittihamlarına cavab verib: ***"Paradoksal olsa da, İslandiya nümayəndəsi Avropa Şurasının Nazirlər Komitəsində yüzminlərlə azərbaycanlı məcburi köçkünün hüquqlarını, Ermənistan tərəfindən törədilən hərbi cinayətləri və beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasını inkar edir."***

XİN Ceyhun Bayramov: ***"Hər danışdığım rəsmi qurumlara bir daha xatırladıram ki, əsas məqsəd nədir. Silah-sursat və minaların daşınması yolverilməzdir. Laçın yolundakı aksiyada əsas hədəf ekoloji fəlakətlərin dayandırılmasıdır. Bu insanların tələbləri Azərbaycanın təbii sərvətlərinin talanmasının, ekoloji fəlakətin qarşısının alınmasıdır."***

**21 YANVAR 2023** - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsi Avropa Parlamentinin 2023-cü il 19 yanvar tarixli qətnaməsi ilə əlaqədar bəyanat yayıb: ***"Avropa Parlamenti Azərbaycan torpaqlarını işğal edən Ermənistana qarşı bir dəfə də olsun səsini çıxarmadı, ölkəmizin ərazi bütövlüyünün toxunulmazlığı ilə bağlı BMT-nin qəbul etdiyi 4 qətnaməsini gözardına vurdu. Həmçinin təcavüzkar Ermənistana hər cür maddi-mənəvi dəstək göstərildi. Yalan üzərində qurulmuş qətnamədə iddia olunur ki, guya Azərbaycan Ermənistana hərbi təcavüz edib, Laçın yolu "blokada"-dadır. Eyni zamanda, sənəddə acı gülüş doğuran məqam isə tamamilə hörmətdən düşmüş və tarixin arxivinə gömülmüş "Madrid prinsipləri"***nə istinadlardır.

**24 yanvar 2023** - Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfiri Elin Süleymanov "Financial Times" qəzetində bir neçə gün əvvəl dərc olunmuş yazıya elə həmin nəşrdəki cavab məqaləsində deyib: ***"Laçın-Xankəndi yolu ilə hərəkət edən yüzlərlə nəqliyyat vasitəsi Ermənistan tərəfin dediyi kimi, Azərbaycan tərəfindən heç bir "blokada"nın olmadığını göstərir."*** Xatırladaq ki, Azərbaycanda milli azadlıq hərəkatı 1988-ci ildə məhz Şuşa şəhərinin yaxınlığında yerləşən Topxana meşəsini qorumaq tələbi ilə başladıldı - Dağlıq Qarabağın təbiətininin qayğısına qalmaq nə yeni, nə də səthi məsələ deyil. Məqalə Qarabağın beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisi olduğunu təsdiqləyir. Hətta Ermənistan hələ bu yaxında beynəlxalq sənədlərə əsasən Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edib. Qafqazda davamlı sülhün təmin olunmasına dair hərtərəfli sazişlə davam etmək həm erməni, həm də Azərbaycan xalqlarının maraqlarına xidmət edərdi.

**31 YANVAR 2023** - Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Jozef Borrel Avropa Parlamentinin ermənipərəst deputatı Asita Kankonun sualına cavab olaraq bildirib: ***"Sanksiyalar Aİ-nin ümumi xarici və təhlükəsizlik siyasəti məqsədlərinə xidmət edən vasitələrindən yalnız biridir və hazırkı vəziyyətdə nəzərdə tutulmur. Aİ-nin Ermənistan və Azərbaycanla çalışmaları dialoq vasitəsilə həllə nail olmağa yönəlib və hər iki ölkənin rəhbəri buna tərəfdar olub."***

**1 FEVRAL 2023** - Laçın yolundakı aksiyanı Çexiya televiziyasının əməkdaşları da işıqlandırırlar.

**4 FEVRAL 2023** - Beynəlxalq nümayəndə heyəti Laçın-Xankəndi yolundakı dinc etiraz aksiyasını müşahidə ediblər. Diasporumuz Beynəlxalq Ədalət Məhkəməsinin önündə dinc aksiyası keçirib.

**10 FEVRAL 2023** - Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov "The Times" radiosuna müsahibə verib: ***"Nəticə etibarilə dayanıqlı sülh, regionda nəqliyyat dəhlizlərinin açılması, kommunikasiyaların bərpası Ermənistan və Azərbaycan üçün mühüm olmaqla yanaşı, bütün regionda davamlı inkişafın qarantıdır."***

**18 FEVRAL 2023** - Prezident İlham Əliyev: ***"Laçın-Xankəndi yolunda blokadadan söhbət gedə bilməz. Dekabrın 12-dən bu günə qədər 2500-dən çox yük maşını və Beynəlxalq Qızıl Xaç Komitəsinin maşınları keçmişdir və əgər blokada var idisə, bu maşınlar necə keçə bilərdi? Yəni bu, Azərbaycana qarşı əsassız bir ittihamdır. Biz bunu rədd edirik və deyə bilərəm ki, keçirdiyim bütün görüşlərdə bu mövqe anlayışla qarşılanır. O cümlədən Avropa İttifaqı bizim mövqeyimizi anlayır. Biz haqlı olaraq tələb edirik ki, yataqlarımızın qanunsuz istismarı dayandırılsın və buna nail olunmayana qədər əminəm ki, bizim ictimai fəallarımız öz şərəfli missiyalarından əl çəkməyəcəklər. Bu gün də bunu çatdırmağa çalışdım."***

**27 FEVRAL 2023** - Xarici jurnalistlər Laçın yolunda ekokönüllülərin keçirdiyi aksiyanı işıqlandırırlar.

**28 FEVRAL 2023** - XİN Ceyhun Bayramov: ***"Ekofəalların Laçın yolunda aksiyası Ermənistan tərəfinin onun istifadəsini kobud şəkildə pozması ilə bağlıdır."***














**12 dekabr 2022 - tarixindən Xankəndi- Laçın yolundan keçən sülhməramlılara və BQXK-ya məxsus nəqliyyat vasitələrinin sayı**

**12 dekabr-10 yanvar – 400-ə yaxın**
**11 yanvar-26 yanvar – 600-ə yaxın (hər iki istiqamətdə)**
**27 yanvar-10 mart – 2000-dən yuxarı**
**11 mart-25 mart – 2000-dən yuxarı**
**Cəmi – 5000-dən yuxarı**

**Hazırladı: iqtisadçı-ekspert Maqsud Quliyev**

# AMEA-nın alimləri Azərbaycan Ağsaqqallar Şurası tərəfindən “Elm Günü” münasibətilə təltif ediliblər






**Martın 27-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında 27 Mart – Elm Gününə həsr olunmuş “Azərbaycan Milli Elmlər Akademiyası: yeni mərhələ və müasir vəzifələr” adlı tədbir keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları Fəxri Xiyabanda müasir Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Daha sonra elmi-texniki-yaradıcılıq sərgisinə baxış keçirilib.

Tədbiri AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq, bütün Azərbaycan alimlərini 27 Mart – Elm Günü münasibətilə təbrik edib və onlara gələcək elmi fəaliyyətlərində yeni-yeni uğurlar diləyib. Daha sonra “Azərbaycan Milli Elmlər Akademiyası: zaman və müasirlik” mövzusunda çıxış edən İsa Həbibbəyli öz nitqində AMEA-nın yaranma tarixindən, müasir Azərbaycan elmininin hazırkı səviyyəsindən, onun inkişaf perspektivlərindən, nailiyyətlərdən və görüləcək işlərdən ətraflı bəhs edib.

Tədbirdə digər natiqlərlə yanaşı Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyev də məraqlı məruzə ilə çıxış edib. O, öz çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 09 aprel tarixli sərəncamı ilə hər il mart ayının 27-də ölkəmizdə “Elm günü”nün qeyd olunduğunu bildirərək, dövlət tərəfindən ölkəmizdə elmin inkişafına göstərilən diqqət və qayğıdan danışıb, həmçinin alimləri bu əlamətdar gün münasibətilə təbrik edib. Vurğulayıb ki, respublikamızda həyatın müxtəlif sahələrinin inkişaf etdirilməsində, dövlətçiliyimizin formalaşdırılmasında, elmi kadrların yetişdirilməsində alimlərimizin böyük əməyi vardır. Xüsusən ayrı-ayrı elm sahələri üzrə dünya şöhrətli alimlər yetişdirən Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin bütün elmi potensialını özündə cəmləyərək respublikamızın elmi müəssisələrinin fəaliyyətini istiqamətləndirən intellektual beyin mərkəzinə çevrilmişdir. Eldar Quliyev öz məruzəsində bəzi problemli məsələlərə də toxunaraq qeyd edib edib ki, alimlərimiz və onların elmi əsərləri xaricdə zəif təmsil olunur, beynəlxalq səviyyəli nüfuzlu kitabxanalarda müəllifi azərbaycanlı olan kitablara çox az-az rast gəlinir. Bu sahəyə daha çox diqqət ayırmağın vacibliyindən bəhs edən Eldar müəllim, həmçinin, gələcəyimiz olan gənclərimizin elmə marağının artırılmasının da bu günün ən prioritet məsələlərindən biri olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra o, ölkəmizdə elmin və təhsilin inkişafına verdikləri töhfələrə, beynəlxalq elmi əlaqələrin formalaşdırılmasında, yüksəkixtisaslı elmi kadrların hazırlanmasında, gənc alimlərin yetişdirilməsində, onlara milli-mənəvi dəyərlərin aşılanmasında göstərdikləri xidmətlərə görə və *“Elm günü” münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının alimlərini, o cümlədən Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvləri olan AMEA-nın Birinci vitse-prezidenti, Fizika İnstitutunun Baş direktoru, akademik Arif Həşimovu, millət vəkili, akademik Ziyad Səmədzadəni, AMEA-nın müşaviri, akademik Yaqub Mahmudovu, AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevi, habelə AMEA-nın vitse-prezidenti, akademik Tofiq Nağıyevi, Geologiya və Geofizika İnstitutunun Baş direktoru, akademik Akif Əlizadəni, AMEA-nın müxbir üzvü Rafiq Qasımovu və filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevi Şuranın “Fəxri Ağsaqqal” döş nişanı ilə təltif edib. Həmçinin bəzi alimlərə Azərbaycan Ağsaqqallar Şurasının Fəxri fərmanları təqdim olunub.*

Tədbirdə Azərbaycan Ağsaqqallar Şurasının Aparat rəhbəri Ramin Həsənli, böyük məsləhətçi-hüquqşünas Kamal Əliyev, o cümlədən Şuranın digər əməkdaşları Şahnaz Hacıyeva, Rafiq Rzayev və Elşad Quliyev də iştirak edib.

# Azəri-Mərkəzi-Şərqi platformasının dayaq bloku təhlükəsiz şəkildə suya buraxılıb

ASCO-nun “STB-1” barjı ilə dənizə göndərilən Azəri-Mərkəzi-Şərqi platformasının dayaq bloku təhlükəsiz şəkildə suya buraxılıb.

Bu barədə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyindən (ASCO) bildirilib. “Heydər Əliyev” adına Bakı Dərin Özüllər Zavodunda inşa edilmiş platforma 16 martda ASCO-nun “STB-1” barjına yüklənərək yola salınıb. Xüsusi sürüşdürmə əməliyyatı ilə barjın üzərinə yüklənmiş dayaq blokunun çəkisi 16000 ton, hündürlüyü 153 metrdir. Azəri-Mərkəzi-Şərqi layihəsində istismar olunması üçün ASCO-nun “STB-1” barjında ötən il zəruri modifikasiya işləri aparılıb. Barjın tələb olunan dərəcə üzrə sertifikasiyası yenilənib.



# BP və ADNOC İsrailin qaz şirkətinin səhmlərinin 50%-ni almaq üçün 4 milyard dollar təklif edib

İsrailin “NewMed” enerji şirkəti bildirib ki, neft-qaz nəhəngləri “British Petroleum” (BP) və Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) onun səhmlərinin yarısını almaq üçün birlikdə 4 milyard dollar təklif edib.

ADNOC kompaniyasının bu təklifdə iştirakı 2020-ci ildə İsrail və BƏƏ arasında diplomatik münasibətlərin qurulması və keçən il imzalanan azad ticarət sazişindən sonra yeni bir əməkdaşlıq nümunəsidir.

İsrailin Leviathan dəniz qaz yatağının 45 faizinə sahib olan “NewMed” şirkəti bazar ertəsi “məcburi olmayan indikativ təklifin” alındığını və sövdələşməni araşdırmaq üçün audit komitəsi təyin etdiyini bildirib. Səhmlərin nağd satışı “NewMed”in törəmə şirkəti olan “Delek”i də əhatə edə bilər.

BP isə bildirib ki, “ADNOC ilə birlikdə “NewMed Energy” şirkətinin sərbəst dövriyyəsinin alınması və “Delek”in payının qismən əldə edilməsi yolu ilə özəlləşdirməyə dair qeyri-məcburi təklif irəli sürüb. Bu, BP və ADNOC-un İsrail şirkətinin səhmlərinin 50 faizinə sahib olması ilə nəticələnəcək.



# Azərbaycanda Kibertəhlükəsizlik Mərkəzi yaradılıb




Ölkədə getdikcə artan kibertəhlükəsizlik çağırışlarına cavab olaraq, “PAŞA Holding” Şirkətlər Qrupunun dəstəyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İsrailin texnologiya üzrə ən nüfuzlu ali təhsil müəssisəsi – “Technion” İnstitutu ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzini təsis edib. Ölkənin kibertəhlükəsizlik imkanlarını gücləndirmək məqsədilə yaradılan mərkəz bu sahədə yüksək ixtisaslı mütəxəssis və təlimçilərin yetişdirilməsində əsas mərkəz rolunu oynayacaq.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, martın 28-də baş tutan açılışda Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev, Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev, İsrailin keçmiş Xarici İşlər naziri, “Technion”un səfiri Qabi Aşkenazi, “Technion” İnstitutunun icraçı vitse-prezidenti və baş direktoru Boaz Qolani, İsrail səfirliyinin nümayəndələri və digər qurumların rəsmiləri iştirak ediblər. Onlar Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində yaradılan şəraitlə tanış olublar.

# 2030-cu ilədək qlobal bərpa olunan enerji tranzisiyası üçün 35 trilyon dollar lazımdır



Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera Berlin Enerji Transmissiyası Dialoqunda (BETD) bildirib ki, 2023-cü il üçün Dünya Enerji Transmissiyası İcmalında qarşıya qoyulan hədəflərə yenidən baxılmalıdır.

Baş direktor uğurlu enerji transmissiyası üzrə mövcud vəziyyətin cəsarətli addımlar və böyük investisiyalar tələb etdiyini bildirib. O əlavə edib ki, dünyada və bütün sektorlarda investisiya və hərtərəfli siyasətlər bərpa olunan mənbələri inkişaf etdirmili, həmçinin struktur dəyişiklikləri həyata keçirilməlidir.

İcmalda göstərilir ki, bərpa olunan mənbələrin qlobal miqyasda elektrik enerjisi istehsalının 40 faizini təşkil etdiyi sektorda irəliləyiş əldə edilib. Lakin qlobal istiləşmənin 1,5 Selsi səviyyəsindən aşağı saxlanılması üçün transmissiyanın həcmi 3,000 giqavatdan (GW) 2030-cu ildə 10,000 GW-dək artmalıdır ki, bu da hər il orta hesabla 1000 GW təşkil edir. Eyni zamanda, bu proses dünyanın müəyyən hissələri ilə məhdudlaşır. Çin, Avropa İttifaqı və ABŞ keçən il bu sahədə tərəqqinin üçdə ikisinə nail olmaqla inkişaf etməkdə olan ölkələri daha da geridə qoyublar.

# Elçin nəsrinin şeiriyyəti

***Elçin Əfəndiyev təkcə ədəbi-tarixi prosesdə yox, ümumiyyətlə, milli-ictimai fikirdə özünəməxsus yeri olan yazıçı, ictimai xadim, təəssübkeş vətəndaş, böyük ziyalı və nəcib insandır. Elçin Əfəndiyevin yaradıcılığı Azərbaycan ədəbiyyatının zəngin bir təmayülünü təşkil edir. Təsadüfi deyil ki, ümumilli lider Heydər Əliyev yazıçı haqqında: "Elçin yaradıcılığının çoxşaxəli olması ilə seçilən, müxtəlif janrlarda uğurla işləməyi bacaran qələm sahiblərindəndir. O, ictimai fəaliyyəti ilə müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın mənəvi birlik və həmrəyliyi işinə yüksək dərəcədə xidmət etmişdir", - deyərək ona yüksək qiymət vermişdir.***

Elçin Əfəndiyevin əsərlərində milli kökə bağlılıq, milli heysiyyət, mənəvi təmizlik və saflıq geniş yer tutur. O, Azərbaycan xalqının tarixi-mənəvi varlığını, bədii sözünü ədəbiyyat aləmində inamla qoruyan, əks etdirən yazıçı və tənqidçilərdən biri, çağdaş Azərbaycan ədəbiyyatının canlı klassikidir. Elçin nədən yazırsa yazsın, ona oxucularının arzu və düşüncələri prizmasından baxmağı bacarmışdır. Yazıçı tənqidi fəaliyyətə də yazıçı kimi başlamışdır. Lakin tənqidi əsərləri öz canlılığı, kəsəri, aktuallığı ilə həmişə ümumi maraq oyatmışdır.

Elçin Əfəndiyevin adı 60-cı illərin ideoloji qəliblərinə sığmayan üslubda yazıb-yaratmış və ədəbiyyatımızın yeni mərhələsini formalaşdırmış nasirlər arasında daim hörmətlə çəkilməkdədir. Elçin təkcə Azərbaycanda deyil, onun hüdudlarından çox-çox uzaqlarda tanınan, sevilən yazıçılardandır. Yazıçı ailəsində dünyaya göz açan, ömrü-günü kitablar arasında keçən Elçin Əfəndiyev daim oxumuş, öyrənmiş, dünyanın ən böyük yazıçılarının əsərləri onun üçün ədəbi meyara çevrilmişdir. Azərbaycan nəsrini, müasir ədəbi tənqid zirvəsini araşdıran Elçin Əfəndiyev öz yaradıcılığına da çox ciddi yanaşmış, dərindən öyrəndiyi, müşahidə etdiyi personajların həyatını yüksək sənətkarlıqla əks etdirməyi bacarmışdır.

Elçin Əfəndiyev çağdaş dövrün psixoloji hekayə ustalarından biridir. Bu psixoloji hekayələrin ən dərin qatlarında müəllifin humanist fikirləri dayanır. İlk baxışda yazıçı qəhrəmanlarının heç birinə öz rəğbətini bildirmir, onları ancaq təsvir edir. Lakin hadisələrin məntiqi inkişafı yazıçının sadə adamların tərəfində dayandığını, onları ürəkdən sevdiyini göstərir.

Elçinin maraqla oxunan əsərlərindən biri də «Bülbülün nağılı» hekayəsidir. Hekayəni fəlsəfi-psixoloji əsər kimi səciyyələndirmək mümkündür. Burada müəllif həyat, «gəlimli-gedimli, son ucu ölümlü dünya» haqqında düşüncələrini ifadə etmiş və insanın azadlığı məsələsini ön plana çəkmişdir. Əsəri oxuduqda hasil olan qənaət belədir: azadlıq dünyada ən böyük sərvətdir. Yazıçı bu ideyanı ölüm ayağında olan qoca tacirin yaddaşında azadlıq aşiqi bülbüllə bağlı canlandırdığı təsirli lövhələrdə açır.

Həyatını var-dövlət toplamağa həsr edən qoca tacir bu həqiqəti ölüm ayağında dərk edir. İbrətamiz sonluqla bitən hekayədən belə nəticə çıxır: insan var-dövlət əsiri olmamalıdır. Həyatda ona verilən ömrü ləyaqətlə və azad yaşamalıdır.

Elçinin dramaturji yaradıcılığından danışarkən onun pyeslərinin bədii dilinin özünəməxsusluğundan söhbət açmamaq düzgün olmazdı. Bu baxımdan "Ağ dəvə" tədqiqatçılar üçün daha zəngin material verir. Romanda ötən əsrin 30-40-cı illərində Bakı məhəllələrinin birində yaşanan hadisələr canlandırılır. Bu məhəllədə müxtəlif xarakterli, müxtəlif dünyagörüşlü insanlar yaşayır. Bu insanların bir-birindən əlavə, dünyayla, həyatla, taleləriylə və daxili aləmiylə münasibəti, daha dəqiq desək, mübarizəsi əks olunub. Əsərdə Həsənağa əmi, Əzizağa əmi, Səfurə xala, Firuzə xala, Məşədi xanım, Ələkbər, Balakərim, Şövkət, İbadulla və başqalarının dilindəki yerli koloritin özünü əks etdirməsinə daha tez-tez rast gəlirik. Personajların dilinə belə münasibət həm də xalqın psixoloji və eyni zamanda fərdi xüsusiyyətlərini oxucu qarşısında nümayiş etdirmək, onu yaddaşa həkk etmək imkanı verir. "Ağ dəvə" əsərində folklorizm və tarixilik bütün konkret janr və üslub kanonlarının formal tərəflərinə hopur. Elçinin realist üslubunda müəyyən yer tutmuş fantastika, nağılçılıq yazıçının obyektiv real həyatın məna və xarakterini, mahiyyətini əsərində əks etdirməyə canatmanı sübut edir. Ümumiyyətlə, Elçinin əsərlərində istifadə etdiyi özünəməxsus folklor konstruksiyaları, tarixi fakt və hadisələr məzmun və forma cəhətdən də son dərəcə maraqla izlənilir.

***Elçin Əfəndiyevin Azərbaycan şifahi xalq ədəbiyyatını, milli-mənəvi irsimizi özündə əks etdirən ən gözəl əsərlərindən biri də "Əsli və Kərəm" dastanının motivləri əsasında qələmə aldığı "Mahmud və Məryəm" romanıdır. Burada hadisələrin mərkəzində Mahmudla Məryəmin bir-birinə qovuşmasına mane olan, hadisələrin faciəvi sonluqla bitməsinə gətirib çıxaran din ayrılığıdır. Əsərdə iki gəncin sevgisinə mane olan mürtəce fikirli Qara Keşişdir. O, Məhəmməd ümməti Mahmudun qızıyla arasında olan məhəbbətinə qarşı çıxaraq, gecəylə ailəsini götürüb eldən qaçır və sonrakı hadisələr onların başına gələn faciələrdən bəhs edir.*** Əsərdə el ədəbiyyatından gələn motivlər güclü olsa da, burada sənətkar dəsti-xətti, onun özünəməxsus bədii qələmi diqqəti cəlb edir. Yalnız dastanın süjetindən bəhrələnməklə və bu süjetdən yararlanmaqla onu yeni məzmun, yeni ideyalarla zənginləşdirmiş, dastanda qoyulan problemləri, mövzuları genişləndirmiş, bəşəri ideyaları, milli-mənəvi əxlaqi görüşləri özündə əks etdirən yeni mövzuda bir əsər yaratmışdır.



Əsərdə dastanlarımızla səsləşən lələ obrazı diqqəti cəlb edir. O da qəhrəmanın uğursuz məhəbbətinin canlı şahididir. Yazıçının yaratdığı lələ obrazı xalq dastanlarında yaşayan motivlər üzərində köklənmişdir. Sofi də belə lələ surətlərindəndir. O da Mahmudla Məryəmin arxasınca diyarbadiyar gəzir. Onun çəkdiyi əzablar Sofi lələnin ürəyini göynədir. Xəstələnəndə ana kimi qayğısını çəkir. Kərəmə qarşı insafsızlıq edəndə xalq ədəbiyyatından gəlmə motivlər üstündə yenidən bu obrazı kökləyən yazıçı dastanlarda lələlərə məxsus sədaqət, vəfa kimi yüksək keyfiyyətləri bu obrazda cəmləyir. O da dastandakı lələ kimi öləndən sonra Mahmudla Məryəmin qəbrinin yanında mücavir olur.

"Mahmud və Məryəm" əsərində müxtəlif xalqlarda tanınan əfsanəvi, mifik obrazların adı çəkilir və onlarla bağlı xalq ədəbiyyatında yaşayan əfsanə və rəvayətlər xatırlanır. Onlar bu realist povestin bədiiliyini artırır. Bu obrazlar dünya ədəbiyyatında şöhrət qazanmış, insan zəkasının yaratdığı dərin məzmunlu, yüksək sənətkarlıq nümunəsi olan xalq yaradıcılığına rövnəq verən obrazlardır. Əsərdə dünya xalqları arasında tanınan əfsanəvi obrazlar çoxdur və onlar xalq yaradıcılığının əsas mövzularının qəhrəmanlarıdır. Elçinin qəhrəmanı tez-tez bu qəhrəmanları, onların başına gələn hadisələri xatırlayır. Elçin Əfəndiyev isə belə elə bir reallığı, yaratdığı əsərlər üçün mövcud olan qanunauyğunluqları gözləmir, qəhrəmanlarının daxili əhval-ruhiyəsinə uyğun olaraq hadisələri təsvir edir və bu hadisələrdə həm real, həm də həqiqətdə inana bilməyəcəyimiz mövzular öz əksini tapırsa da, bu əsərin mənəvi dəyərinə xələl gətirmir, əksinə onun bədii təsir gücünü artırır, qüdrət və qüvvət sahiblərinə inamımızı artırmaqla yanaşı, onları real yaşayışımıza, həyatımıza daxil edir və oxucu gördüyü haqsızlıqların, törədilən cinayətlərin haqq-ədalət naminə yerdə qalmayacağına inamını itirmir.

***Yaradıcılığı boyu müxtəlif mövzulara müraciət edən Elçin müxtəlif biçimli hekayələrində, povest və romanlarında olduğu kimi, "Ölüm hökmü" romanında da toxunduğu problemlərin bədii həllinə müvəffəq olmuş, ideya yükü ilə seçilən dəyərli sənət əsəri yaratmışdır. Əsərdə üç mürəkkəb, ziddiyyətli dövrün ayrı-ayrılıqda təsvirini yaradan yazıçı müxtəlif zaman kəsiyində baş verən hadisələri çox böyük ustalıqla bir-birilə əlaqələndirir.***



"Ölüm hökmü" romanında əsas hadisələr Tülki Gəldi Qəbristanlığında cərəyan edir. Tülkü Gəldi Qəbristanlığı əsərdə şərti məkandır və Sovetlər İttifaqının anoloqu kimi çıxış edir. Bu ərazidə baş verən hadisələr hakimi-mütləq olan ictimai-iqtisadi formasiyanın çatışmazlıqlarını, bütün mahiyyətini özündə əks etdirir. Romanda əsas hədəf Tülkü Gəldi Qəbristanlığının müdiri Əbdül Qafarzadədir. O, zamanın nəbzini tutan, pul yığmaqdan gözü doymayan, tülkü qədər hiyləgər bir tipdir.

"Ölüm hökmü" romanının sonunda çox insanlara qan udduran, haram yollarla var-dövlət, hörmət sahibi olan Əbdül Qafarzadənin tale yolunun belə bir sonluqla bitməsi təbiidir, məntiqlidir. "Ədalət topaldır: ağır-ağır yeriyər, amma gedəcəyi yerə gec-tez çatar". Zamanın haqsızlıqlarına dözməyən Gicbəsərin intiharı oxucunu pessimist ovqata köklləsə də, Əbdül Qafarzadənin "qızıl teştə qan qusmağı" yaranmış ümidsizliyi, inamsızlığı aradan qaldırır, əsər boyu tarıma çəkilmiş sinirləri gərginlikdən azad edərək ədalətin gec də olsa qələbə çalacağına bir daha ümidli edir.

***Elçin təkcə nəsr və dramaturgiyada yox, ədəbi tənqiddə də yeniliklər yaratmış, dəyərli imzaya malik müəllifdir. Elçin Əfəndiyevi oxumaq Azərbaycan xalqını yaxından tanımaq, Azərbaycanın uzun illər boyu milli-mənəvi dəyərlər və istiqlal uğrunda apardığı müqəddəs mücadiləni öyrənməkdir. Müasirlik, həyat həqiqətərinə həssas və iti nəzər, xəlqilik çağdaş bir sənətkar kimi Elçin Əfəndiyevin yaradıcılığında öz əksini tapan məziyyətlərdir. Elçin zamanla, dövrlə ayaqlaşan, xalqı sevən ədibdir.***

Onu da qeyd etməliyik ki, Elçin Əfəndiyev uzun illər boyu Azərbaycan ədəbiyyatının müxtəlif məsələləri barədə həm respublika, həm də beynəlxalq mətbuatda çıxışlar etmiş və bu yazıları ilə milli ədəbiyyatın uğur və problemlərini işıqlandırmağa nail olmuşdur. Onun həm bədii, həm də elmi-tənqidi yazılarında əsas özül sabitlikdir. Ədəbiyyat elminin bu və ya digər sahəsi ilə, milli mədəniyyət və mənəviyyatın ayrı-ayrı problemləri ilə bağlı fikir və qənaətlərin sabitliyi, daha artıq dərəcədə qəlbən və ağlın gücü və işığı ilə inandığı, onları hər şeydən qabaq milli mənəviyyatla bağlamaq, araşdırıb öyrənmək adəti Elçin yaradıcılığının tərkib hissəsidir. Yazıçının bir çox tənqidi məqalələri dünya ədəbiyyatı və mədəniyyətini əhatə edir. Bu tipli yazıları diqqətlə nəzərdən keçirdikdən sonra dərk edirsən ki, əsas məqsəd yenə də məhz milli ədəbiyyatın indiyə kimi gün işığı görməyən, kölgədə qalan cəhətlərini öyrənməkdir. Elçin təsvir etdiyi obrazların daxili aləmini bütün çalarları ilə görməyi bacarır, bu görüntülərdə ən dəqiq, ən səciyyəvi olan cizgiləri seçə bilir. Yazıçı nə elmi, nə də bədii yaradıcılığında rəng adiliyi, həyata münasibətin birtərəfliliyi ilə barışmır. Əsərlərində varlığın şeiriyyətini açır, ehtiyac duyanda onun sərt və acı həqiqətlərini göstərir. Dinamiklik, hadisələri daxildən açıb mənalandırmaq, surəti təbii və həyati ifadə etmək onun hekayələri ilə povestləri arasında rabitə yaradır.

Elçin Əfəndiyev fasiləsiz yaradıcılıq axtarışındadır, onun bədii şəkillərin hamısından eyni dərəcədə istifadə edə bilmək imkanı vardır. Ona görə də oxucu Elçin Əfəndiyevin istedadına, onun daha tutumlu, daha mənalı əsərlər yazacağına inanır.

**Bəybala Ələsgərov,**
**tarix elmləri doktoru**
**Elnarə Mehbalıyeva,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,**
**fəlsəfə doktoru**

# QHT layihənin icrasını tamamlayıb



"Gənclik və Maarifçilik" İB Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə "Gənclərin karyera inkişafı və 21-ci əsr bacarıqları. Maarifləndirici tədbirlərin təşkili" adlı layihənin icrasını tamamladı.

"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i və bu sənədin "XXI əsrin tələblərinə uyğun təhsil" istiqaməti ölkəmizdə gələcək insan kapitalının formalaşması üçün çox əhəmiyyətlidir. Bu istiqamətli təhsil 21-ci əsrın əmək bazarı tələblərinə uyğun, rəqabətqabiliyyətli insan resurslarının yaradılmasını nəzərdə tutur. Müasir karyera inkişafına dair məqalələrdə 21-ci əsr bacarıqları, "sərt bacarıqlar" və "yumşaq bacarıqlar" kimi terminlərə tez-tez rast gəlirik. Bu bacarıqlar müasir əmək bazarında vacibdir. Gəncləri bu bacarıqlara təhsil illərindən hazırlamaq lazımdır. Bu layihə çərçivəsində gələcəyin müəllimləri – ADPU-nun tələbələrinə tədbirlər prosesində 21-ci əsr bacarıqları barədə ətraflı məlumatlar verildi. Tədbirlər tələbələrin marağına səbəb oldu. Layihə rəhbəri Vaqif Əmikişiyev, layihə eksperti isə İlham Əhmədov idi.

# Dollara tələbin artması manat üçün risklər yaradırmı?

Mərkəzi Bankın təşkil etdiyi hərracda xarici valyuta tələbi 96,3 milyon dollar olub. Əvvəlki hərracda sifarişin 47,9 milyon dollar olduğunu nəzərə alsaq, dollara tələbin 2 dəfədən çox artdığını görürük. Dollara tələbin artması manat üçün risklər yaradırmı? Tələbin artması səbəbləri nədir?

Tələbin artmasının əsas səbəbi qeyri-iş günlərinə görə təxminən son iki həftədə valyuta hərracların keçirilməməsidir. Biznesin dollara bəlli tələbi var və bayram günləri banklar çalışmadığı üçün bugünkü hərracda artan sifarişlərə əsasən məbləğ formalaşdı. Nəticədə, dollara tələbin hiss edilən səviyyədə yüksəlməsi qeydə alındı.

Bu barədə iqtisadçı-ekspert Vüqar Bayramov deyib.



Ekspert bildirib ki, oxşar tendensiya 2022-ci ilin Novruz bayramından sonra da müşahidə olunmuşdu. Belə ki, 2022-ci il martın 29-u hərracında dollara tələb 105 milyon dollar olsa da, sonrakı hərracda sifariş həcmi 72,2 milyon dollara, daha sonra 68 milyon dollaradək azaldı. Bu baxımdan, növbəti hərraclarda mərhələli şəkildə sifariş həcminin azalacağı gözlənilir.

"2022-ci ildə Azərbaycanın idxalı 14 milyard 539 milyon dollar olub. 2021-ci ildə idxal 11 milyard 705 milyon dollar, 2020-ci ildə isə 10 milyard 732 milyon dollar idi. Göründüyü kimi, illər üzrə idxalda hiss edilən artım var. Bunun bir hissəsi dövlət sifarişləri olsa da, biznesin də payı az deyil. Təbii ki, idxal inflyasiyasi da digər indikatordur. İdxal artdıqca dollara tələb də artır. Doğrudur, ixracatda da artım yüksəkdir. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, ixrac qazancımızın əhəmiyyətli hissəsi enerji gəlirləri olaraq valyuta ehtiyatlarımızı artır. Bütövlükdə, idxal həcmi və xarici səfərlərin intensivliyini nəzərə aldıqda yaz aylarında dollara tələbin kəskin azalacağı gözlənilmir", - deyə V.Bayramov qeyd edib.

## «Avand Sığorta Brokeri» MMC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HEASABATI

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I. UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | | |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 11 500,00 | 10 350,00 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **11 500,00** | **10 350,00** |
| **II. QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **140 001,21** | **2 365,24** |
| birbaşa sığorta üzrə | 799,58 | 2 365,24 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | 139 201,63 | 0,00 |
| - təkrarsığortaçı üzrə | | |
| - təkrarsığortalı üzrə | 139 201,63 | 0,00 |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | | |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | | |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **59 597,03** | **30 311,71** |
| kassa | | |
| hesablaşma hesabı | 8 095,47 | 229,79 |
| valyuta hesabı | 51 501,56 | 30 081,92 |
| depozit hesablar | 0,00 | 0,00 |
| sair pul vəsaitləri | | |
| **Qısamüddətli maliyyə aktivləri:** | | 0,00 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| **Sair qısamüddətli aktivlər:** | | |
| gələcək hesabat dövrlərinin xərcləri | | |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | 6 700,00 |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | 199 598,24 | 32 676,95 |
| **CƏMİ AKTİVLƏR** | 211 098,24 | 43 026,95 |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I. KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 100,00 | 100,00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **-75 763,39** | **-81 464,40** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -2 533,08 | Hesabat dövründə xalis mənfəət (zərər) |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -73 230,31 | -75 763,39 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **-75 663,39** | **-81 464,40** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | | |
| Həyat sığortası sahəsi üzrə | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | **6 016,36** | **0,00** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 6 016,36 | 0,00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **202 720,15** | **78 796,77** |
| təkrarsığortaçı üzrə | 202 720,15 | 78 796,77 |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **208 736,51** | **78 796,77** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **21,60** | **0,00** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | 21,60 | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 0,00 | 0,00 |
| **Sair qısamüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 77 759,00 | 50 986,48 |
| **Sair öhdəliklər** | 244,52 | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **78 025,12** | **50 986,48** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | 286 761,63 | 129 783,25 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 211 098,24 | 48 318,85 |

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 0,00 |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **İnvestisiya gəlirləri üzrə** | |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | 12 482,70 |
| **CƏMİ GƏLİRLƏR** | **12 482,70** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | 0,00 |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| qaytarılan sığorta haqları üzrə | |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 0,00 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 18 283,71 |
| **Sair xərclər** | 0,00 |
| **CƏMİ XƏRCLƏR** | **18 283,71** |
| **Maliyyə mənfəəti (zərəri)** | -5 801,01 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0,00 |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | -5 801,01 |
| **Mənfəət vergisi** | 0,00 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **-5 801,01** |

## AZSIĞORTA ASC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HEASABATI

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | **949 160,05** | **710 001,42** |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | **0,00** | **0,00** |
| **Daşınmaz əmlaka investisiyalar** | **0,00** | **0,00** |
| **Qeyri-maddi aktivlər** | **655 234,34** | **589 710,62** |
| **Təxirə salınmış vergi aktivləri** | **648 590,90** | **1 175 321,49** |
| **Uzunmüddətli debitor borcları** | **0,00** | **0,00** |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **0,00** | **3 300 050,97** |
| dövlət qiymətli kağızları | 0,00 | 3 300 050,97 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | **312 500,00** | **312 500,00** |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair aktivlər** | **400 000,00** | **400 000,00** |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **2 965 485,29** | **6 487 584,50** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **2 946 770,03** | **1 852 263,19** |
| birbaşa sığorta üzrə | 514 646,28 | 411 162,03 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **49 897,54** | **197 038,89** |
| - təkrarsığortaçı üzrə | 49 897,54 | 47 382,69 |
| - təkrarsığortalı üzrə | 0,00 | 149 656,20 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 1 178 195,85 | 1 080 982,56 |
| iddia tələbləri üzrə | 11 799,79 | 0,00 |
| işçi heyəti üzrə | 1 093,20 | 0,00 |
| sığortalılara verilən borclar üzrə | 0,00 | 0,00 |
| sair debitorlar | 1 191 137,37 | 163 079,71 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **19 755 049,45** | **19 379 656,77** |
| kassa | 0,00 | 0,00 |
| hesablaşma hesabı | 1 062 976,70 | 1 739 154,96 |
| valyuta hesabı | 30 695,73 | 31 631,26 |
| depozit hesablar | 18 450 000,00 | 17 500 000,00 |
| sair pul vəsaitləri | 211 377,02 | 108 870,55 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **8 000 000,00** | **4 800 000,00** |
| dövlət qiymətli kağızları | 8 000 000,00 | 0,00 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 4 800 000,00 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **4 150 018,65** | **2 037 247,74** |
| həyat sığortası sahəsi üzrə | 0,00 | 0,00 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 4 150 018,65 | 2 037 247,74 |
| **Sair qısamüddətli aktivlər:** | **260 321,31** | **20 957,48** |
| gələcək hesabat dövrlərinin xərcləri | 258 815,75 | 19 654,02 |
| verilmiş avanslar | 0,00 | 0,00 |
| təhtəl hesablar | 1 505,56 | 1 303,46 |
| **Sair aktivlər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | **35112 159,44** | **28 090 125,18** |
| **CƏMİ AKTİVLƏR** | **38077 644,73** | **34 577 709,68** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **14 007 000,00** | **14 007 000,00** |
| **Emissiya gəliri** | **0,00** | **0,00** |
| **Geri alınmış kapital (səhmlər)** | **0,00** | **0,00** |
| **Kapital ehtiyatları:** | **0,00** | **0,00** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0,00 | 0,00 |
| digər kapital ehtiyatları | 0,00 | 0,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **3791 574,85** | **1 550 133,29** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 757 783,31 | -2 001 441,56 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 0,00 | 0,00 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 3033 791,54 | 3 551 574,85 |
| Elan edilmiş dividendlər | 0,00 | 0,00 |
| ***Cəmi kapital*** | **17798 574,85** | **15 557 133,29** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **17 172 520,82** | **15 969 303,89** |
| Həyat sığortası sahəsi üzrə : | 0,00 | 0,00 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 17 172 520,82 | 15 969 303,89 |
| **Qarşısıalınma tədbirləri fondu** | **1 549 125,93** | **1 574 406,63** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | **0,00** | **0,00** |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | **436 518,03** | **0,00** |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | **0,00** | **0,00** |
| **Kreditor borcları:** | **0,00** | **0,00** |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| digər məcburi ödənişlər üzrə | 0,00 | 0,00 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 0,00 | 0,00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **283 489,61** | **762 828,89** |
| təkrarsığortaçı üzrə | 283 489,61 | 762 828,89 |
| təkrarsığortalı üzrə | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair öhdəliklər** | **0,00** | **0,00** |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **19 441 654,39** | **18 306 539,41** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | **2 669,94** | **250 740,23** |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | **71 481,71** | **105 284,80** |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **0,00** | **0,00** |
| **Kreditor borcları:** | **763 263,84** | **358 011,95** |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 23 713,36 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 30 315,51 | 22 928,62 |
| digər məcburi ödənişlər üzrə | 33 657,68 | 18 278,57 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 675 577,29 | 316 804,76 |
| **Sair qısamüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **0,00** | **0,00** |
| **Sair öhdəliklər** | 0,00 | **0,00** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **837 415,49** | **714 036,98** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **20 279 069,88** | **19 020 576,39** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **38 077 644,73** | **34 577 709,68** |

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **11 200 235,01** |
| birbaşa sığorta üzrə sığorta haqları | 10 590 661,96 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 569 612,62 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 0,00 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 39 960,43 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **-909 553,98** |
| **İnvestisiya gəlirləri üzrə** | **2 749 451,68** |
| **Subroqasiya gəlirləri** | **345 862,38** |
| **Sair gəlirlər** | **1 140 043,22** |
| **CƏMİ GƏLİRLƏR** | **14 526 038,31** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **11 269 210,32** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 9 438 751,55 |
| qaytarılan sığorta haqları üzrə | 40 227,18 |
| tənzimləmə xərcləri | 96 197,43 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 1 415 414,79 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 78 676,70 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 199 942,67 |
| **İşlərin aparılması xərcləri** | **5 222 587,44** |
| **Sair xərclər** | **562 412,70** |
| **CƏMİ XƏRCLƏR** | **17 054 210,46** |
| **Maliyyə mənfəəti (zərəri)** | **-2 528 172,15** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **-2 528 172,15** |
| **Mənfəət vergisi** | **-526 730,59** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **-2 001 441,56** |

| PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT | 2022 |
|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin axını** | |
| Sığorta və təkrarsığorta haqlarından daxilolmalar | 11 891 492 |
| Təkrarsığortaya ötürülən müqavilələr üzrə ödənişlər | -847 795 |
| Qaytarılmalı olan sığorta haqları üzrə ödənişlər | -24 605 |
| Sığorta və təkrarsığorta hadisələri üzrə ödənişlər | -9 354 602 |
| Sığorta ödənişlərində təkrarsığortaçıların payı | 2 509 |
| Komissiya ödənişləri | -171 559 |
| Əmək haqqı fondu üzrə ödənişlər | -3 248 882 |
| Ümumi və İnzibati xərclər üzrə ödənişlər | -1 544 965 |
| Marketinq və reklam xərcləri üzrə ödənişlər | -35 163 |
| Subroqasiya üzrə daxilolmalar | 72 351 |
| Digər daxilolmalar / ödənişlər | -209 587 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən xalis pul axını** | **-3 470 805** |
| **Mənfəət vergisi üzrə ödənişlər** | 0 |
| **Əməliyyat fəaliyyətindən xalis pul axını** | **-3 470 805** |
| **İnvestisiya fəaliyyətindən pul axını** | |
| İnvestisiya fəaliyyətindən daxilolmalar | 3 780 264 |
| Qiymətli Kağızların alışı | -8 100 051 |
| Qiymətli Kağızların satışı | 8 000 000 |
| Banklarda yerləşdirilən depozitlər | -12 500 000 |
| Banklarda yerləşdirilən depozitlərin qayıdışı | 13 450 000 |
| Əsas vəsait və qeyri-maddi aktivlərin alışı | -51 354 |
| Əsas vəsait və qeyri-maddi aktivlərin satışı | 6 700 |
| İdarəçilik xərcləri | -337 833 |
| Digər müəssisələrə investisiya qoyuluşu | 0 |
| Dividenddən daxilolmalar | 42 000 |
| **İnvestisiya fəaliyyəti üzrə xalis pul axını** | **4 289 726** |
| **Maliyyə fəaliyyəti üzrə pul axını** | |
| Dividend ödənişi | -240 000 |
| | |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul axını** | **-240 000** |
| Məzənnə fərqi (müsbət) | 2 851 |
| Məzənnə fərqi (mənfi) | -7 164 |
| **Pul və pul vəsaitlərində xalis artma / (azalma)** | **574 607** |
| Dövrün əvvəlinə pul və pul vəsaitləri | 1 305 049 |
| Dövrün sonuna pul və pul vəsaitləri | 1 879 657 |

| KAPİTALDA DƏYİŞİKLİKLƏR BARƏDƏ HESABAT | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | CƏM |
|---|---|---|---|
| **Yanvar 01, 2022** | **14 007 000** | **3 791 575** | **17 798 575** |
| Dövr ərzində Mənfəət və ya Zərər | 0 | -2 001 442 | -2 001 442 |
| Ödənilmiş dividend | 0 | -240 000 | -240 000 |
| **Dekabr 31, 2022** | **14 007 000** | **1 550 133** | **15 557 133** |

**"AZSIĞORTA" ASC-nin rəhbərliyinə və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə Müstəqil Auditorun Hesabatı**

**Rəy**

Biz "AZSIĞORTA" Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixinə təqdim maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan Maliyyə Hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş Maliyyə Hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatan il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirilir.

**Rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin *"Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Cəmiyyətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik hazırkı Maliyyə Hesabatlarını Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan Maliyyə Hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının hazırlanması zamanı rəhbərlik, Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən Maliyyə Hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Cəmiyyətin idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin Maliyyə Hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə Hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Cəmiyyətin Maliyyə Hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə Cəmiyyətin Maliyyə Hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq Cəmiyyətin Maliyyə Hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Cəmiyyətin Maliyyə Hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və Maliyyə Hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

28 mart 2023-cü il

Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti «M and J Konsaltinq» Limited Liability Company Azerbaijan Republic

## «Societe de Courtage» Sığorta və Təkrarsığorta Brokeri MMC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HEASABATI

| № | | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | |
| 10 | Qeyri-maddi aktivlər | 7 067,37 | 7 852,63 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 2 850,73 | 5 009,70 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | |
| 13 | Bioloji aktivlər | | |
| 14 | Təbii sərvətlər | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | |
| 17 | Uzunmüddətli debitor borcları | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | |
| 19 | Sair uzunmüddətli aktivlər | 504,17 | 1 952,83 |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **10422,27** | **14 815,16** |
| 2 | **Qısamüddətli aktivlər** | | |
| 20 | Ehtiyatlar | | |
| 21 | **Qısamüddətli debitor borcları** | **54 205,65** | **126 22,47** |
| | birbaşa sığorta üzrə | | |
| | təkrarsığorta əməliyyatları üzrə: | 47 536,66 | 119284,00 |
| | - təkrarsığortaçı üzrə | 5 106,87 | 4 734,57 |
| | - təkrarsığortalı üzrə | 42 429,79 | 114549,43 |
| | asılı təşkilatlar üzrə | | |
| | büdcə üzrə | 5 936,30 | 4 560,30 |
| | iddia tələbləri üzrə | | |
| | işçi heyəti üzrə | | |
| | sığortalılara verilən borclar üzrə | | |
| | sair debitorlar | 732,69 | 2 278,17 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 51 240,48 | 161416,02 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | |
| 24 | Sair qısamüddətli aktivlər | 755,94 | 1 705,10 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **106 202,07** | **289243,59** |
| | **CƏMİ AKTİVLƏR** | **116 624,34** | **304058,75** |

| | | | |
|---|---|---|---|
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| 3 | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 155 783,00 | 155783,00 |
| 31 | Emissiya gəliri | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | |
| 33 | Kapital ehtiyatları | 20 108,56 | 20 108,56 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | (85 647,07) | 43 775,19 |
| | **CƏMİ KAPİTAL** | **90 244,49** | **219666,75** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | |
| | Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər: | 25 094,20 | 83 109,91 |
| | təkrarsığortaçı üzrə | 19 456,63 | 78 375,34 |
| | təkrarsığortalı üzrə | 5 637,57 | 4 734,57 |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **25 094,20** | **83 109,91** |
| **5** | **Qısamüddətli öhdəliklər** | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | |
| 53 | Qısamüddətli kreditor borcları | 1 285,65 | 1 282,09 |
| 54 | **Sair qısamüddətli öhdəliklər** | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **26 379,85** | **84 392,00** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | **116 624,34** | **304 58,75** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **116 624,34** | **304 58,75** |

| Bölümün/ maddənin №-si | | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəlirləri | | |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | | |
| | Ümumi mənfəət (zərər) | | |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | 34 453,58 | 217 617,47 |
| 71 | Kommersiya xərcləri | | |
| 72 | İnzibati xərclər | | |
| 73 və 61 | Sair əməliyyat xərcləri | (163 875,84) | (238 849,36) |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından mənfəət (zərər) | | |
| | Əməliyyat mənfəəti (zərəri) | | |
| 63 və 75 | **Maliyyə mənfəəti (zərəri)** | **(129 422,26)** | **(21 231,89)** |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | |
| | Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | (129 422,26) | (21 231,89) |
| 90 | Mənfəət vergisi | | |
| 341 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | **(129 422,26)** | **(21 231,89)** |
| | O cümlədən, | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | |
| | Digər məcmu gəlir | | |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | |
| | O cümlədən, | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | |

**Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında MƏLUMAT**

| Bölümün/ maddənin №-si | Xərc maddələrinin adları | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| | Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı artımlar (azalmalar) | | |
| | Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | |
| | İstifadə edilmiş material ehtiyatları | | |
| | İşçi heyəti üzrə xərclər | (118 934,81) | (183 009,21) |
| | Amortizasiya ayırmaları | (3 074,03) | (2 569,70) |
| | Digər əməliyyat xərcləri | (41 867,00) | (53 270,45) |
| | **Cəmi əməliyyat xərcləri** | **(163 875,84)** | **(238 849,36)** |

## E L A N

**"MARKUP-2" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus olan onun əmlakı, əmlak hüquqları, şəxsi qeyri-əmlak hüquqları, digər təşkilatların nizamnamə kapitalında və əmlakında iştirak payları, icazələri və lisenziyaları, borcları və öhdəlikləri yeni yaradılmış və hüquqi varisi olan "MARKUPP-2" Məhdud Məsuliyyətli Cəmiyyətə keçir.**

# Milli Məclisin deputatı Fazil Mustafaya qarşı terror aktı törədilib



***Martın 28-də saat 21:51-də Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında "Kalaşnikov" konstruksiyalı avtomat silahından atəş açılaraq terror aktı törədilib.***

Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) mətbuat xidməti məlumat yayıb.

Qeyd edilib ki, terror aktı nəticəsində Fazil Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb. Ona zəruri tibbi xidmətlər göstərilir və vəziyyəti stabil olaraq qiymətləndirilir. Həyati təhlükəsi yoxdur.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 277 (dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd etmə) və 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb. Terror aktını törətmiş şəxsin və cinayət hadisəsi ilə əlaqəsi olan digər şəxslərin müəyyən olunaraq cinayət məsuliyyətinə cəlb olunması istiqamətində kompleks təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

*****

Hazırda terror hücumu nəticəsində güllə yaraları alan deputat Fazil Mustafanın vəziyyəti yaxşıdır.

Bunu deputatın köməkçisi Əjdər Əliyev deyib.

O bildirib ki, F.Mustafa iki dəfə əməliyyat olunub. *"Əməliyyatlar başa çatıb, Fazil müəllim özünə gəlib və hazırda vəziyyəti yaxşıdır"*, - deyə Ə.Əliyev əlavə edib.

*Daima dövlətimizin, xalqımızın xoşbəxtliyini düşünən görkəmli ziyalı, millət vəkili Fazil Mustafaya qarşı sui-qəsd dövlətçiliyimizə yönəldilmiş terrordur.*

*Fazil Mustafa öz fəaliyyətində cəmiyyətimizin maariflənməsinə, dünyəvi dəyərlərin təbliğinə üstünlük verirdi. Cəhalətə, xurafata qarşı kəskin çıxışları ilə seçilirdi. O, doğma Azərbaycanımızı təhdid edən, xalqı cəhalətə və xurafata sürükləyən şəxslərlə, böyük bir qüvvə ilə millətimizə zərbə vurmaq istəyənlərlə mübarizə aparırdı. Düşünürəm, Fazil Mustafaya atılan xain gülləsi müstəqil, gün-gündən inkişaf edən, qüdrətlənən Azərbaycana tuşlanıb. Və əminəm ki, çox qısa bir müddətdə hüquq-mühafizə orqanları cinayətkarların layiqli cəzalarına çatdırılmasını təmin edəcəkdir. Mən hörmətli Fazil müəllimə şəfa diləyir, tezliklə sağalmasını arzulayıram.*

*Milli Məclisin deputatı,*
*akademik Ziyad Səmədzadə*

# "Bakcell"dən rəqəmsal yeniliklər!

Bakcell şirkəti rəqəmsal yeniliklərini təqdim edib. Yeni Bakcell tətbiqi və internet səhifəsi abunəçilərə rəqəmsal texnologiyaların üstünlüklərindən istifadə etməklə ən üstün müştəri təcrübəsindən yararlanmaq imkanı verir.

İndi Bakcell abunəçiləri müxtəlif xidmətlərdən daha sürətli, asan və heç yerə getmədən istifadə edə biləcəklər.

Yeni Bakcell tətbiqi üztanıma texnologiyası, onlayn çat, ödəniş və loyallıq proqramının tətbiq olunduğu çoxfunksiyalı platformadır. Tətbiqdəki üztanıma texnologiyası sayəsində eSIM nömrə almaq və ya mövcud Bakcell nömrəsinin eSIM dublikatını çıxarmaq üçün onlayn müraciət etmək kifayətdir.




"Bakcell"in təqdim etdiyi yeni internet səhifəsi də abunəçilərin rahatlığını təmin etmək üçün bir çox rəqəmsal funksiyalara malikdir. Abunəçilər artıq Bakcell saytı vasitəsilə nömrə ala, özlərinə uyğun tarif və digər xidmətləri seçə bilərlər.

Yeni rəqəmsal təcrübə ilə www.bakcell.com internet səhifəsində tanış olmaq mümkündür. Tam yeni Bakcell tətbiqini https://onelink.to/bakcell linkindən həm Android, həm iOS platformalarında işləyən mobil cihazlara yükləmək olar.

Qeyd edək ki, Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.

# "Bakcell"dən iPhone istifadəçilərinə xəbər!

5G şəbəkəsi indi iPhone smartfonlarından istifadə edən Bakcell abunəçiləri üçün aktivdir. iPhone istifadəçiləri Bakının bir neçə nöqtəsində qurulmuş 5G test şəbəkəsindən yararlanaraq ultrasürətli interneti sınaqdan keçirmək imkanına malikdir.




5G şəbəkəsinə qoşulan iPhone istifadəçiləri "Bakcell"dən 5GB balans hədiyyə alacaq. Hədiyyə interneti almaq üçün 5G-nin mövcud olduğu ərazilərdə olarkən telefonda *501*1# kodunu yığmaq lazımdır.

Qeyd edək ki, Bakcell Azərbaycanda eSIM və VoLTE texnologiyalarını tətbiq edən ilk mobil operatordur. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınır. Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.

# "Kənardan bu, möcüzə kimi görünə bilər, amma mən bu prosesdə özümü qəhrəman saymıram"

***Yer üzündə hər gün yüzlərlə xəstə insana orqan köçürülərək həyata qaytarılır. Müalicəsi başqa yolla mümkün olmayan xəstələrin həyatda qalması üçün yeganə çıxış yolu orqan transplantasiyasıdır. Bu gün transplantologiya müasir elmin ən mühüm nailiyyətlərindən biridir, tibb sahəsində əldə edilən ən yüksək zirvədir.***



Transplantologiya perspektiv sahə olub, şübhəsiz ki, nə vaxtsa insanlar tərəfindən adi tibbi əməliyyat kimi qəbul olunacaq, hələlik isə bu sahədə təcrübəli və peşəkar həkimlər sayladır. Belə həkimlərdən biri Mərkəzi Gömrük Hospitalının ümumi cərrahı, cərrah-transplantoloq Kamran Beydullayevdir.

***- Kamran həkim, siz 15 ildən çoxdur ki, orqan transplantasiyası əməliyyatları həyata keçirirsiniz. Təcrübənizdə daha çox hansı əməliyyatlar olub?***

- Bəli, mən son 15 ildə ümumi cərrahiyyə əməliyyatları ilə yanaşı, orqan transplantasiyası əməliyyatlarını da icra edirəm. Bunlara qaraciyər və böyrək transplantasiyası əməliyyatları daxildir. Ümumi cərrahiyyə əməliyyatlarına isə seçim qoymuruq, bütün cərrahi əməliyyatları - qida borusundan başlamış mədə, mədəaltı vəzi, bağırsaqlar, öd yolları, dalaq və s. - hamısını icra edirik. Ümumi cərrahiyyə əməliyyatlarında statistika aparmamışıq, amma yəqin ki, bu statistika digər böyük ümumi cərrahiyyə mərkəzlərinin statistikasından çox da fərqlənməz. Qaraciyər transplantasiyası ilə bağlı olaraq bu sahənin əməliyyatlarında daha dərin biliyə və vərdişlərə malik olduğumuz üçün hepatobiliar əməliyyatlarla bir az daha çox rastlaşırıq. Qaraciyər, öd yolları, mədəaltı vəzi xəstəlikləri ilə bağlı müraciətlər çox olur.

Mən fəaliyyətimin son 15 ilində 1000-ə qədər böyrək transplantasiyası, 350-yə qədər qaraciyər transplantasiyası əməliyyatlarında iştirak etmişəm. Qeyd edim ki, Azərbaycan üçün bu rəqəm yetərincə böyük rəqəmdir və mən bu rəqəmi söyləməkdən qürur duyuram.

***- Bu illər ərzində icra etdiyiniz transplantasiya əməliyyatlarında hansısa yeniliklər, dəyişikliklər varmı?***

- Bəli, biz fəaliyyətimizi ən müasir elmi nailiyyətlərə əsaslanaraq davam etdiririk, dünya tibb sahəsində baş verən hər bir yeniliyi izləməyə çalışırıq. Bu yaxınlarda ABŞ-ın nüfuzlu Elsevier nəşriyyatının çap etdirdiyi "Transplantation Proceedings" jurnalında həmmüəlliflərindən biri olduğum 2 məqaləmiz dərc olunub. Böyrək transplantasiyası əməliyyatlarında donorlar üzərində laparoskopik əməliyyatlar edirik, bu proses 40-45 dəqiqə çəkir, bu da yetəri qədər yüksək vərdişlərimizin yarandığını sübut edən amildir. MDB məkanında uşaqlarda qaraciyər transplantasiyası əməliyyatlarında donor əməliyyatını ilk dəfə biz laparoskopik yolla icra etmişik, cəmi 2 əməliyyat icra olunub, hazırda bu istiqamətdə işlərimiz davam edir.

Artıq bəzi ölkələrdə böyrək transplantasiyası əməliyyatlarında böyrək donorlarını robotik üsulla əməliyyat edirlər. Yaxın vaxtlarda Azərbaycanda lazımi cihaz alınarsa, biz böyrək donorları üzərində robotik əməliyyatlar həyata keçirməyi planlaşdırırıq. Qaraciyər transplantasiyası əməliyyatlarında isə yaxın vaxtlarda meyitdən orqan köçürülməsi prosesinin işə düşməsini gözləyirik. Ümid edirik ki, bunu da Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və orqan transplantasiyası şöbəmiz uğurla həyata keçirəcək.

***- Müalicəsi yalnız orqan transplantasiyası olan bəzi xəstəliklərə yoluxmamaq üçün peyvəndlər mövcuddur. Bu xəstəliklərə qarşı peyvənd olunmaqla qarşısını almaq mümkündürmü?***

-Söhbət yəqin ki, hepatit B virusundan gedir, çünki qaraciyər sirrozuna gətirib çıxaran xəstəliklərdən yalnız hepatit B-yə qarşı peyvənd mövcuddur. Hepatit C-yə qarşı peyvənd hal-hazırda təəssüf ki, mövcud deyil. Situasiya belədir ki, biz, adətən son dönəm qaraciyər xəstəlikləri ilə qarşılaşırıq, onların yeganə yolu transplantasiyadır ki, biz də onu icra edirik.

***- Əksər hallarda insanlar hər hansı xəstəliyə yoluxduqdan sonra həkimlərin dedikləri analizləri verir və gözləmədiyi bir zamanda, heç bir ağrı onları narahat etmədən hepatit virusunun daşıyıcısı olduqları məlum olur. Hepatiti vaxtında aşkarlamaq üçün nə etmək lazımdır?***

- Hepatit olub-olmamağını bilməyin ən düzgün, etibarlı yolu tibb müəsisəsinə gedib analiz verməkdir. Burada xroniki qaraciyər xəstəliyi törədən hepatit B və hepatit C-dən söhbət gedirsə, onların B-də 20%-i kəskin formada keçir, yəni saralma ilə müşahidə olunur, C-də isə saralma hallarına daha az rast gəlinir. Digər hallarda hepatitə yoluxma hiss olunmur, yuxarı tənəffüs yollarının katarı kimi, qrip kimi qısa xəstəlik əlamətləri müşahidə olunur, bunlar qeyri-spesifik əlamətlərdir. Ona görə də yeganə yol analiz verməkdir.

***- Orqan transplantasiyası zəruri olan xəstəliyə məruz qalmış insan üçün donor tapmaq nə qədər çətin prosesdir? Donora qarşı tələblər hansılardır?***

- Mən hazırda transplantasiya komandasında donorlarla daha çox məşğul oluram. Donor üçün ilk tələbimiz qan qrupunun xəstənin qan qrupuna uyğun olmasıdır, qaraciyər transplantasiyası üçün yaş həddi 18-dən 55-ə qədər, böyrək transplantasiyası üçün isə 18 yaşdan başlayaraqdır, yuxarı yaş həddi qoymamışıq.

İkincisi, könüllü, təmənnasız qaraciyərinin bir parçasını verən insanlar, bu, ilk növbədə, qohumlardır, emosional və ya genetik bağlılığı olan insanlar ola bilər. Bunlar ilkin seçim üçün şərtlərdir. Donor sağlam olmalıdır, çünki o da böyük əməliyyata məruz qalır. Üçüncü şərt əməliyyatın texniki icrasının mümkünlüyünü aydınlaşdırmaqdır. Bəzən elə olur ki, bir xəstə üçün bir donor tapmaq kifayət edir və əməliyyat icra olunur. Elə hallar da olur ki, 10 namizəd donor kimi yoxlanılır, heç biri uyğun gəlmir...

Hazırda bütün dünyada donor qıtlığı var, bu səbəbdən də marjinal donorlar istifadə olunur. Dünyada KADAVRA proqramı var. Bizim ölkəmizdə bu istiqamətdə iş gedir. Əgər bu proqramı qurmaq mümkün olarsa, bunun hesabına müəyyən mənada donor qıtlığı məsələsi həll edilmiş olar.

***- Həkim-transplantoloq kimi xəstələrinizə orqan köçürdükdən sonra keçirdiyiniz hisslər barədə nə deyə bilərsiniz? Bir insanı yenidən yaşatmaq sizin üçün nə deməkdir?***

- Həqiqət budur ki, biz bunu adi, gündəlik bir iş kimi qəbul edirik. Bəlkə də karyeramın ilk illərində hər uğurlu əməliyyatdan sonra qürur kimi bir hiss yaşayırdım. Professional vərdişdənmi irəli gəlir, - deyə bilmərəm, hazırda elə bir xüsusi hiss keçirmirəm. Qəribə görünsə də, deyərdim ki, bəlkə də bu, bir tərəfdən yaxşıdır, o mənada ki, emosiyalar sənin qərar verməyinə təsir etmir. Təsəvvür edin, həyatının son günlərini sayan bir insan əməliyyatdan sonra özünü yenidən həyata qayıtmış insan kimi hiss edir. Kənardan bu möcüzə kimi görünə bilər, amma mən bu prosesdə özümü qəhrəman saymıram.

- Maraqlı müsahibəyə görə sizə təşəkkür edirik. Sizə bu məsuliyyətli işinizdə uğurlar arzulayırıq.

**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**
**Dilara Zamanova**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Abid Şərifova oğlu
**ELÇİN ŞƏRİFOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Abid Şərifova oğlu
**ELÇİN ŞƏRİFOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Standartlaşdırma İnstitutunun direktoru İlham Bayramova anası
**XAVƏR XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Natiq Şirinzadə Abid Şərifova oğlu
**ELÇİN ŞƏRİFOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**